Azad Azərbaycan

17 noyabr / 2020

# Masazırın ilk şəhid oğlu

*"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz"*

**Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhrəmanlardır - Şəhidlər. Çünki, bu dünyada hamımıza bəxş olunan bir ömür payı var. Ömür yolunu müəyyən müddət sonra başa vuracağıq. Bu mənada insanın dünya həyatına ən gözəl şəkildə əlvida deməyinin adıdır şəhid olmaq.**



Təsadüfən deyilməyib: Şəhidlər unudulmur, şəhidlər yaddan çıxmır. Belə şəhidlərdən biri də Abşeron rayonu, Masazır kənd sakini Əhmədov Mənsur Mamed oğludur.

Xatırladaq ki, Mənsur Əhmədov 2002-ci ildə Masazır kəndində əməkçi ailəsində anadan olub. 2019-cu ildə o, Masazır kənd orta məktəbini başa vurub. 2020-ci il aprel ayında ordu sıralarına xidmətə çağrılıb. Əvvəlcə o, Qusar şəhərində N saylı hərbi hissədə 6 ay qulluq edir. Mənsuru 27 sentyabr 2020-ci ildə Azərbaycanda Vətən müharibəsi başlayan gündən Füzuli döyüş bölgəsinə göndərirlər. Döyüşlərdə öz şücaəti ilə daim seçilən Mənsur yağı düşmənin başına od yağdıranlardan olub. Ancaq çox təəssüf ki, belə igid oğlumuz 21 oktyabrda Vətəni müdafiə edərkən qəhrəmancasına şəhid olur.

**Mənsurun oxuduğu məktəbdə dərs-hissə müdiri Afərin müəllimə qəhrəman Şəhidimiz haqqında deyir:** "Mənsur məktəbimizdə ən fəal və qabaqcıl şagirdlərdən biri idi. Dərslərini yüksək səviyyədə hazırlayardı. Bütün müəllimlərin sevimlisi idi. Şagird yoldaşları ilə çox səmimi idi. O, həm də məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edərdi. Çox intizamlı idi, dərsə yubanmazdı. Bu gün məktəbin pedaqoji şurasının qərarı ilə Mənsur Əhmədovun adını məktəbimizə verməlisi ilə bağlı müraciət hazırlamışıq".

**Şəhidimizin atası Mamed Əhmədov deyir:** "Mənsur ailədə hamının sevimlisi idi. Ürəyi yumşaq idi, özünü çox təmkinli aparardı. Bizim sözümüzdən çıxmazdı. Orduda olarkən mən onu iki dəfə yoxlamağa getmişdim. Sonra da telefonla əlaqə saxlayardıq".

**Mənsurun komandirləri də onun barəsində danışıb:** "Mənsur ilk gündən döyüşə qatılarkən çox dəqiq atəşlə düşməni susdururdu. Komandirlərini çox sevirdi, hər zaman əsgər yoldaşları ilə birlikdə olardı. Vətəni qorumağa onlara tövsiyə edərdi. Döyüş bölgələrində çox sərrast atıcı idi. Komandirlər atasına deyirdi əhsən belə ataya ki, Vətəni canla-başla qoruyan oğul yetişdirib".

Masazır kənd camaatı çox sevinir ki, Çıraqlı məktəbin müəllimləri Mənsur Əhmədovun xatirəsini əbədiləşdirirlər.

**Şəhidlər ölmürlər onlar göy aləmindədirlər. Vətən başın sağ olsun şəhid oğlun ilə!**

**Hacı Tofiq SEYİDZADƏ**